**"Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi barədə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 14 may tarixli, 45 nömrəli qərarına dəyişikliklər və əlavələr edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Keçmiş kolxoz, sovxoz və digər kənd təsərrüfatı müəssisələrinin balansında olmuş daxili təsərrüfat meliorasiya və irriqasiya sistemlərinin Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin balansına verilməsi ilə əlaqədar "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 14 may tarixli, 45 nömrəli qərarına müvafiq dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Əmlakı Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin və həmin qərarla təsdiq edilmiş "Meliorasiya və Su Təsərrüfatı Komitəsinin strukturun"da "irriqasiya meşə təsərrüfatı" sözləri "meşə meliorasiya" sözləri ilə əvəz edilsin "Mərkəzi-Muğan kollektorlarının istismarı idarəsi(İmişli rayonu)" sözlərindən sonra isə "Sabirabad meliorasiya idarəsi (Sabirabad rayonu)", "Ucar meliorasiya idarəsi (Ucar rayonu)" və "Ağcabədi meliorasiya idarəsi (Ağcabədi rayonu)" sözləri əlavə edilsin.

2. Bu qərarın 1-ci bəndində göstərilən dəyişikliklər və əlavələr 2000-ci ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Meliorasiya və Su təsərrüfatı Komitəsi üçün nəzərdə tutulmuş büdcə vəsaitləri və "Əməyin ödənişli fondu" çərçivəsində həyata keçirilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. Rasizadə**

**Bakı şəhəri, 27 iyul 2000-ci il**

**№ 130**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3057-3058.**